# "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar gənclər arasında intellektual oyun təşkil edilib



**Fevralın 1-də Heydər Əliyev Mərkəzində "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı, "Azərlotereya" ASC-nin dəstəyi ilə 2 Fevral - Gənclər Günü münasibətilə gənclər arasında "Gənc Vətənpərvərlər: Konstitusiya və suverenlik - Nə? Harada? Nə zaman? İntellektual oyunu" keçirilib.**






AZƏRTAC xəbər verir ki, tədbirdə "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova, "Regional İnkişaf" İctimai Birliyinin bölmə rəhbəri İlkin Muradov və "Azərlotereya" ASC-nin İctimaiyyətlə əlaqələr və korporativ sosial məsuliyyət üzrə departament rəhbəri Seymur Teymurov çıxış edərək cəmiyyətin aparıcı qüvvəsi, bu günün və sabahın qurucuları olan gənclərin hərtərəfli inkişafı, biliklərinin artırılması, milli-mənəvi dəyərlərə bağlı vətənpərvər gənc kimi formalaşdırılmasının dövlətin gənclər siyasətinin başlıca məqsəd və amalı olduğunu bildiriblər. Natiqlər "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar gənclər arasında keçirilən intellektual oyunun gənclərin ölkəmizin çoxəsrlik tarixi, mədəniyyəti, tarixi hadisələri, dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğunda keçdiyi tarixi yolu barədə məlumatlarının artmasında əhəmiyyətli rol oynayacağını diqqətə çatdırıblar.

İntellektual oyunda əsas məqsədin intellektual dünya görüşünə malik gənclərin üzə çıxarılması, onların bilik və bacarıqlarının artırılması, eyni zamanda, şəhid övladları ilə Azərbaycan cəmiyyətində önəmli rolu olan digər gənclərin dostlaşması, sosiallaşması olduğu vurğulanıb. Məğrur və qüdrətli dövlətin gənclərinin harada olmalarından asılı olmayaraq daim Azərbaycanın başını uca edəcəklərinə əminlik ifadə edilib.

150-yə yaxın gəncin iştirakı ilə keçirilən intellektual oyunun ərazi bütövlüyümüz və suverenliyimizin bərpasında canından keçən qəhrəmanların övladlarının iştirakı ilə əlamətdar olduğu və bu günün onların yaddaşında xoş xatirələrlə qalacağı qeyd olunub.

Rəsmi hissədən sonra "Xəzər" İntellektual Gənclər Klubunun peşəkar komandasının təşkilatçılığı ilə "Nə? Harada? Nə zaman?" oyununa start verilib. Üç turdan ibarət yarışda hər birində 6 nəfər olmaqla ümumilikdə 25 komanda iştirak edib. Yarışda iştirak edən 8 komandanın üzvləri gənc şəhid övladlarından ibarət olub. Oyunun sonunda münsiflər heyəti tərəfindən komandaların cavabları sayılıb və nəticələrə əsasən "Zəngəzur" komandası I, "Parabrain" komandası II, "Torpaq" komandası isə III yerə layiq görülüb.

Sonda qalib komandalar müxtəlif mükafatlar və sertifikatlarla təltif olunub.

İlk dəfədir belə yarışda iştirak etdiyini deyən "Zəngəzur" komandasının üzvü Amal Vəliyev çətin və maraqlı suallarla dolu olan oyunun ədalətli şəkildə keçdiyini bildirib: "Rəqiblərimiz də kifayət qədər hazırlıqlı idi. Qalib olduğumuza sevinir, digər komandalara uğurlar arzulayıram. İntellektual oyunun təşkilatçılarına minnətdarlığımı bildirirəm".

Azərbaycan.- 2025.- 2 fevral (№ 23).- S.5.